


# “Kərkük sevdalısı Qəzənfər Paşayev – 85”

**Əməkdar elm xadimi, ədəbiyyatşünas, yazıçı Qəzənfər Paşayev Azərbaycandan kənarda da yaxşı tanınan parlaq ziyalılarımızdandır. 85 yaşı tamam olan ünlü qələm sahibi ilk olaraq onillər öncə yazmış olduğu çox maraqlı “Altı il Dəclə - Fərat sahillərində” kitabı ilə könülləri fəth edib.**

İraq Türkmən folkloru mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş Qəzənfər Paşayevin "Kərkük bayatıları", "Arzu-Qənbər dastanı", "İraq kərkük atalar sözləri", "İraq kərkük bayatıları", "Kərkük tapmacaları", "Kərkük folklor antologiyası", "Nəsiminin İraq divanı", "İraq Türkmən folkloru" və başqa əsərləri də maraqla qarşılanıb. O, həmçinin Aleksandr Dümanın "Qafqaz səfəri"ni, "Necə yaşayasan yüzü haqlayasan" və b. kitabları Azərbaycan türkcəsinə çevirib.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında görkəmli ədəbiyyatşünas alimin yubileyinə həsr olunan tədbirdə bu barədə ətraflı danışılıb. Kitabxananın direktoru Aslan Cəfərov, tədbirin aparıcısı, filologiya elmlər doktoru, professor Şirindil Alışanov yubilyarın İraq-Kərkük türklərinin mədəni irsinin tədqiqi və təbliğində müstəsna xidmətlərindən bəhs ediblər. Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi alimin "Nəsimi. Edamdan sonrakı həyat" kitabından söz açıb, "Nostradamusun möcüzəli aləmi" əsərinin tərcüməsini yüksək dəyərləndirib.

Azərbaycan Dövlət Nəşriyyatının baş redaktoru, Əməkdar jurnalist Əlövsət Ağalarov, şair Adil Cəmil, filologiya elmləri doktoru Aslan Salmansoy, Bakı Dövlət Universitetinin müəllimi Fəxriyyə İsayeva da Qəzənfər Paşayevə xoş sözlərini ifadə ediblər.

Tədbirdə Gənclər Kitabxanası tərəfindən hazırlanan "Kərkük sevdalısı Qəzənfər Paşayev – 85" adlı videomaterial göstərilib. Onun elmi, bədii, publisistik yaradıcılıq nümunələrindən ibarət sərgi və biblioqrafik siyahı nümayiş etdirilib.

Sonda çıxış edən yubilyarın yaradıcılıq hesabatı, elm, ədəbiyyat, sənət yanğısı haqqında özəl fikirləri böyük maraqla dinlənilib. O, tədbirə qatılan hər kəsə minnətdarlıq edib.

Xalq qəzeti.- 2022.- 25 dekabr.- S.13.